# Azərbaycançılıq - Cənubi Azərbaycanın istiqlaliyyət ideologiyasıdır...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycançılıq ideyasının təbliği**

**Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirir. Azərbaycançılıq millətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir.**



Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur.

Azərbaycançılıq ideologiyası tarix boyu inkişaf edərək, şaxələnərək bütün dünya azərbaycanlılarını bir bayraq altında birləşdirməyi bacarıb. Bu gün isə azərbaycançılıq ideyası Cənubi Azərbaycanda da özünü göstərməkdədir. Son zamanlar baş verən hadisələr fonunda, yaranan yeni reallıqlar tarixdə azərbaycançılıq ideyası ilə bağlı yeni bir səhifənin açılmasına şərait yaradır.

**Milli olmayan hökumətin nə azadlıq, nə də ədalət verə bilməyəcəyini artıq anlayırlar**

Artıq biz görürük indiki İran dövlətinin böyük ərazisini əhatə edən Cənubi Azərbaycandakı proseslərdən doğan milli azadlıq hərəkatı kimi geridönməz xarakter alıb. Azərbaycanın şimalı müstəqillik qazanandan İranın düşmən münasibəti ilə qarşılaşıb. Çünki ölkəmizin gündən-günə inkişafı, yeni reallıqlar yaratması həm də Güney Azərbaycan üçün stimuldur. İran narahatdır ki, qonşuluğunda belə bir ölkənin varlığı daxilindəki azərbaycanlılar üçün də milli dövlət qurmaq baxımından örnək ola bilər. Əbəs yerə deyil ki, Güney Azərbaycanda azadlıq, ədalət, milli hökumət şüarları günbəgün artır, geniş vüsət alır. Milli olmayan hökumətin nə azadlıq, nə də ədalət verə bilməyəcəyini artıq anlayırlar. Çünki bizim ana dili, milli varlıq kimi istəklərimiz şahlıq rejimi hökumətləri çərçivəsində mümkün deyil. Güney azərbaycanlılar həm Şeyx Məhəmməd Xiyabaninin, həm də Seyid Cəfər Pişəvərinin dövründə öz milli hökumətlərini qurublar. Düzdür, müxtəlif qlobal güclərin dəstəyi ilə İran hakimiyyəti onları süquta uğratsa da, azərbaycanlılar yenə də milli dövlətlərinin bərpası üçün ayağa qalxıblar. Yəni İran hakimiyyəti Güney Azərbaycandakı insanların iradəsini heç vaxt qıra bilməyib. Çünki onlar milli dövlətçilik uğrunda mübarizəni hər zaman özünün həyat fəlsəfəsi hesab ediblər. İranda baş verən xalq etirazları Azərbaycanda da yaxından izlənilir. Çünki dövlətimiz xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə daim xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin dediyi kimi, biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik.

**Azərbaycançılıq ideyası Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın şüurunun formalaşmasında xüsusi önəm daşıyır**

Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan tarixi keçmişi, mənəvi dəyərləri, Arazın o tayında on milyonlarla soydaşımızın yaşadığını nəzərə alaraq İranla münasibətlərə xüsusi önəm verib. Məhz bunun nəticəsidir ki, ötən müddətdə ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən çoxsaylı ikitərəfli sənədlər imzalanıb.

Buna rəğmən İranın siyasi və dini dairələrində zaman-zaman Azərbaycan Respublikası ilə bağlı ikitərəfli münasibətlərin ruhuna zidd olan qərəzli davranış ortaya qoyulub. Səbəb isə odur ki, İran rejimi şimalda müstəqil və güclü Azərbaycan dövlətinin mövcudluğu ilə barışa bilmir. Azərbaycançılıq ideyası Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın da milli varlığının, mədəniyyətinin və şüurunun formalaşması və inkişafında xüsusi önəm daşıyır. Bu gün Cənubi Azərbaycandakı mübariz insanlar azərbaycançılıq ideyası istiqamətində, öz milli dövlətçiliyinin yaradılması uğrunda çox geniş bir mübarizəyə başlayıblar. Cənubi Azərbaycan milli hərəkatı öz müqəddəratını təyin etməsini qarşısına məqsəd qoyub. Artıq Güney Azərbaycanda təşkilatlanma var, azərbaycançılıq ideologiyası üzərində qurulan xəttimizin möhkəm və sarsılmaz olduğu nəzərə çarpır. Güney və Quzey Azərbaycanın əhalisi  iki yerə bölünmüş bir millətdir. Bu baxımdan da , Azərbaycançılıq ideyası Cənubdakı soydaşlarımızın hüquqlarının bərqərar edilməsi və istiqlala çatmaları  baxımından olduqca məqbuldur.

Azərbaycan bölünmüş bir ölkə, azərbaycanlıların isə parçalanmış bir millət olduğunu geniş kütləyə çatdırmaq, əlbəttə, bu tarixi cinayəti törətmiş dövlətlərin varislərini əndişələndirməyə bilməzdi. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının milli-mədəni birliyini və mənəvi həmrəyliyini də əhatə etdiyinə görə bu ideya düşmən dairələr üçün hədsiz dərəcədə təhlükəli sayılır. Müstəqil Azərbaycan dövlətinin dünya azərbaycanlılarının milli-mədəni haqlarının hamisi kimi mövqelərini möhkəmləndirməsi, dünyada yaşayan soydaşlarımızın azərbaycançılıq dəyərləri əsasında toparlanması istiqamətində bütün dıstəyini ifadə edir.  Buna görə də, azərbaycançılıq soydaşlarımızın çoxluq təşkil etdiyi İranda potensial təhlükə kimi qiymətləndirilir və buna qarşı barışmaz mübarizə aparılır.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**